**Rəşad Tehran oğlu ŞƏMSİLİ**
*Qərbi Kaspi Universiteti, Bakı, Azərbaycan*
E-mail: reshad.shemsili@gmail.com

# DÜNYA TƏCRÜBƏSİNDƏ BÖYÜK DÖRDLÜK ŞİRKƏTLƏRİNİN AUDİT FƏALİYYƏTİ VƏ ONUN MÜSBƏT CƏHƏTLƏRİNİN AZƏRBAYCANDA TƏTBİQİ İMKANLARI

**Xülasə:** Ölkəmizdə audit fəaliyyətinin inkişaf etdirilməsi və onun beynəlxalq təcrübə əsasında qurulması yönündə bir sıra addımlar atılır. Sözsüz ki, beynəlxalq təcrübənin öyrənilməsində dünyada mövcud olan böyük dördlük şirkətlərinin böyük əhəmiyyəti vardır. Hal-hazırki vəziyyətə nəzər yetirdikdə görürük ki, yerli və xarici audit şirkətlərinin arasında olan müqavilə sayında və məbləğlərində kəskin fərq ortadadır və bunu nəzərə alaraq, yerli audit təşkilatlarının da ölkədəki bu xidmət növündə payının artırılması önəmli məsələlərdəndir. Kəskin fərqin artmasına səbəb həmin xarici şirkətlərin beynəlxalq nüfuzu, hazırlıq və ixtisaslaşma səviyyəsi və digər faktorlarla əlaqələndirilir. Ən önəmli amillərdən biri də işin keyfiyyəti ilə əlaqədardır. Məhz bunun nəticəsidir ki, respublikamızda ən qabaqcıl bankların auditini böyük dördlük şirkətlərindən sayılan EY Azərbaycan, Kpmg Azərbaycan və PwC Azərbaycan şirkəti aparır. Həmçinin, siyahıda böyük onluq şirkətlərindən sayılan Baker Tilly Azərbaycan və Grant Thornton Azərbaycan şirkətlərini də qeyd etmək olar. Hal-hazırda bu şirkətlərin informasiya texnologiyalarında inqilab etdiyinin şahidi oluruq. Belə ki, onlar audit işinin daha da keyfiyyətli aparılması üçün CAAT (Kompüter Dəstəkli Audit Üsulu), məlumat axtarışı və analitik alətləri istifadə edirlər. Belə bir texnologiyanın da gələcəkdə ölkəmizdə mövcudluğu audit xidmətinə ciddi təkan verəcək.

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi Beynəlxalq Audit Standartlarının Azərbaycanda tətbiqinə nail olmaq, "Böyük Dördlük" audit təşkilatlarının bu xidmət sektorunda mövqeyi və onların rolunun tədqiq edilməsi, audit fəaliyyətinin inkişaf etdirilməsi istiqamətlərini tapmaq, ölkəmizdə mövcud olan yerli və xarici audit şirkətlərinin bu xidmət bazarında yerini və rolunun daha da yaxşılaşdırılması yönündə öndə gedən ölkələrin bu sektorda praktikasından istifadə etməkdir.

**Tədqiqatın metodu:** Tədqiqatın aparılması müddətində müqayisəli təhlil, analiz və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri:** Tədqiqatın sonunda aydın olur ki, beynəlxalq təcrübənin öyrənilməsi, Beynəlxalq Audit Standartlarına keçidə təsir göstərən amillərin nəzərə alınması və yerli şirkətlərin bu xidmət sektorunda payının artırılması əsas məsələlərdəndir.

**Açar sözlər:** böyük dördlük, beynəlxalq audit standartları, gəlir, yerli audit şirkəti

**UOT:** 336
**JEL:** G20
**DOI:** doi.org/10.54414/myfa3721

## Giriş

Audit respublikamızın müstəqillik əldə olunandan sonra sivil bazar qayda qanunlarına əsaslanmış olan yeni iqtisadi münasibətlərin bərqərar olması yönündə həyata keçirilən məqsədyönlü siyasətin məntiqi sonluğu olaraq ortaya çıxan və yüksək dünya praktikasından yararlanmaqla qısa zaman ərzində böyük tərəqqi yolunu keçən fəaliyyət sahəsidir. Bu xidmət növünün müəyyən bir ölkədə sivil cəmiyyətinin formalaşmasında, iqtisadiyyatın inkişaf etdirilməsində, rüşvətxorluğun və maliyyə cəhətdən intizamsızlığın ortadan qaldırılmasında, əhalinin və sahibkarların mövcud hüquqlarının müdafiəsində müstəsna rolu vardır. Buna görə də ölkəmiz üçün xidmətin bu növünün formalaşması və inkişafı çox önəmli məsələlərdən biri hesab olunur. Ötən illər ərzində respublikamızda audit sistemi və fəaliyyətinin normativ hüquqi bazasının formalaşması, mütəxəssislərin peşəkarlıq səviyyəsinin və ixtisasının artırılması, ixtisasartırma kurslarının təşkil edilməsi, eləcə də bu sektorda beynəlxalq praktikanın mənimsənilməsi və tətbiqi istiqamətində ciddi işlər və layihələr həyata keçirilmişdir.

Respublikamızda maliyyə nəzarətinin restrukturizasiyası yönündə audit fəaliyyətinin inkişafı çox önəmli məsələlərdəndir. Bundan əlavə hələ də audit sistemində və audit fəaliyyətinin təşkil olunmasında müəyyən məsələlər var ki,

onlar həll olunmamış vəziyyətdə qalır. Həll olunmamış məsələlərə biz audit xidmətinin normativ hüquqi bazasının inkişaf etdirilməsi, audit fəaliyyətinin formasının və metodikasının beynəlxalq praktika bazasında islahatı, mütəxəssislərin yetişdirilməsi və ixtisasartırma sisteminin restrukturizasiyası, audit xidmətinin həyata keçirilməsinin keyfiyyətinin daha da yaxşılaşdırılması, müəssisələrdə daxili audit şöbələrinin qurulması, audit sisteminin təsərrüfat subyektləri və hökumət orqanları ilə münasibətin qurulması istiqamətlərini bura əlavə etmək olar. Adı çəkilən bu yarımçıq qalmış problemlərin həlli respublikamızda audit fəaliyyətinin inkişafı və beynəlxalq standartlara uyğun qurulması yolunda bir vəziyyət formalaşdıracaqdır.

Respublikamızda audit xidmətinin inkişaf etdirilməsinin əsas qayəsi hal-hazırda olan problemlərin həll edilməsinə nail olmaqla ölkəmizdə sivil maliyyə nəzarətinin formalaşmasının elmi-praktik bazasını yaratmaq və bunu müasir tələblərə cavab verən standartlar səviyyəsinə çatdırmaqdır [1 s. 52]. Əlbəttə ki, bu fəaliyyət növünü inkişaf etdirən zaman ölkəmizin mövcud reallıqları gözardı edilməməli, ölkəmizin iqtisadiyyatının quruluşu, xarici əlaqələrin xüsusiyyətləri və digər mövcud olan faktorların təsir dairəsi nəzərdən qaçmamalıdır. Bununla belə, auditin təkmilləşməsi ilk əvvəl və ən çox beynəlxalq audit praktikasından faydalanmaqla gerçəkləşməlidir.

Audit fəaliyyəti şirkətlərdə və təşkilatlarda ancaq mühasibat və maliyyə sənədlərinin yoxlanılması ilə limitlənməməlidir. Belə ki, bu xidmət növü hal-hazırda olan vəziyyəti təhlil edib ümumiləşdirməli, gələcəkdə yarana biləcək fürsətlər üçün proqnozlar verməli, elmdə və texnologiyada əldə edilən uğurların və təcrübələrin istehsala tətbiqini, sosial problemləri həll etmək üçün çıxış yolları tapmalı, idarəetmə sisteminin inkişaf etdirilməsi üçün yeni növ modellərin formalaşdırılması və tətbiq edilməsi üçün təkliflər və tövsiyələr verməlidir.

Bazar iqtisadiyyatının bərqərar olduğu ölkəmizdə bazar münasibətləri təkmilləşdikcə yerli və xarici müəssisələrin, şirkətlərin və təşkilatların hər biri ciddi rəqabət şəraiti ilə qarşı-qarşıya qalır. Belə ki, müəssisələr istehsal etdiyi məhsulu bazarda olan tələb və təkliflə uyğunlaşdıraraq reallaşdırmaq məqsədilə istehsal bazarında özlərinə müvafiq yer tutmağa çalışırlar. Məhz buna görə də audit xidmətində istehsala və maliyyə nəticələrinə təsir göstərən faktorlardan əlavə şirkətin öz potensial inkişafı ilə əlaqədar faktorlar da diqqət mərkəzində olmalıdır. Bu xidmət növü kommersiya fəaliyyəti sayıldığından audit fəaliyyətinə nəzarətin təmin olunması məqsədilə müvafiq hüquqi və institusional tədbirlərin reallaşdırılması ilə əlaqədar auditin keyfiyyətinə kənar nəzarət ilə bağlı beynəlxalq təcrübə öyrənilərək "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" tərtib edilərək Auditorlar Palatasının Şurası tərəfindən qəbul edilmişdir və bu da audit xidmətinin keyfiyyətini yüksəltməyə imkan vermişdir və hal-hazırda da öz müsbət təsirini göstərməkdə davam edir.

Audit xidmətinin təşkil edilməsi və onun inkişafı beynəlxalq təcrübəyə əsaslanmışdır və hər bir ölkədə olduğu kimi Azərbaycan Respublikasında da özünəməxsus xüsusiyyətlərə malikdir. Audit fəaliyyəti formalaşan zaman bir sıra amillər nəzərə alınır. Belə ki, bir ölkənin quruluş xüsusiyyətləri və iqtisadi inkişaf dərəcəsi kimi faktorlar onun formalaşmasında önəmli rol oynayır. Beynəlxalq təcrübənin ölkəmizdə öyrənilməsi, tətbiqi və başlıca infrastruktur sahəsinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görə də audit xidmətinin inkişaf etdiyi dövlətlərin praktikasının araşdırılmasına və öyrənilməsinə önəm verilməlidir. Respublikamızda yerli və xarici audit təşkilatlarının arasında olan müqavilə sayında və məbləğlərində kəskin fərq hələ də görünməkdədir. Başqa bir sözlə, son 10 ilin statistik analizinə nəzər yetirdikdə ölkəmizdə olan xarici audit şirkətlərinin yerinə yetirdiyi müqavilə sayı 4% artaraq 779 olduğu halda, yerli audit şirkətlərinin həyata keçirdiyi audit xidmətinin sayında 20% azalma, 1048 olduğunun şahidi ola bilərik. Bunun bir çox səbəbi olsa da, onlardan ən əsası odur ki, yerli audit təşkilatlarının xarici təşkilatlar ilə başa-baş rəqabət apara bilməməsidir. Çünki, ixtisaslaşma səviyyəsi, maddi-hazırlıq səviyyəsi və dünyadakı nüfuzuna görə yerli şirkətlər çox geridədirlər. Başqa bir nümunə olaraq onu demək olar ki, respublikamızda yerli və xarici şirkətlər kredit ehtiyacı və investisiyaya cəlb olunma zamanı yerli audit şirkətlərinin xidmətlərindən yox, xarici audit şirkətlərinin xidmətinə daha çox üstünlük verirlər. Bunun da ən başlıca səbəbi, əvvəldə qeyd olunduğu kimi peşəkarlıq səviyyəsi və beynəlxalq arenada olan nüfuzunun yüksək olmasıdır.

Audit fəaliyyətinin təşkilində və onun tənzimlənməsində Beynəlxalq Audit İnstitutlarının və qurumlarının rolu böyükdür [2 s.25]. Çünki beynəlxalq audit qurumları audit xidmətinin təmin edilməsində normativ hüquqi sənədlərin və həmçinin, standartların hazırlanması, bunlara edilmiş əlavələrin və dəyişikliklərin müəyyənləşdirilməsi və son olaraq audit praktikasının tətbiqi istiqamətlərinin təyin olunması məsələlərini yerinə yetirir. Bu qurumların əhəmiyyəti xüsusilə Azərbaycan Respublikası kimi yenicə bazar münasibətlərinə keçən ölkələr üçün əvəzedilməzdir.

Audit xidməti müəssisənin başlıca maliyyə hesabatları əməliyyatlarının dəqiq və etibarlı şəkildə əks olunması üçün onların obyektiv şəkildə nəzərdən keçirilməsi və qiymətləndirilməsidir [3 s.33]. Bu xidmət növü təşkilat işçiləri, eləcə də üçüncü şirkət tərəfindən yerinə yetirilə bilər. Başqa bir sözlə, audit xidməti həm daxili, həm də xarici audit formasında həyata keçirilə bilər. Belə ki, kənar audit fəaliyyətinin aparılmasında kiçikdən böyüyə bir çox audit şirkətləri olsa da, onların arasında "Böyük Dördlük" və ya "Big Four" şirkətləri xüsusilə fərqlənir.

PwC, EY, KPMG və Deloitte şirkətlərinin keçmişinə diqqət yetirsək, onların zənginlik, güc və uğur hekayələrini görmüş olarıq. Dominant mövqeyə malik olduqlarından həmin böyük dörd şirkət digər yerdə qalan şirkətlərin fəaliyyət göstərmələri, resurlarını idarə və investisiya etməsi proseslərinə təsir göstərir. Ən qabaqcıl alətlərdən istifadə edən şirkətlər audit ekspertlərinə Böyük Dördlük statusu verir və maliyyə icması və ictimai gözləntiləri təmin edən təhlükəsizlik xidmətləri üçün keyfiyyət və mükəmməllik təmin edir. Qlobal şəbəkə onları əhatə edir, onların güclü audit alətləri, resursları və prosesləri var ki, mütəxəssislərimizə yüksək keyfiyyətli audit xidmətləri təqdim etmək yollarını təklif edirlər. Xidmətlərin göstərilməsində onlar fərdilik, xüsusi qərəzsizlik və praktiki mükəmməlliyin ən yüksək meyarlarına əməl edirlər.

Bu dörd şirkətin ümumi gəlirinin xülasəsi audit, vergi və məsləhət xidmətləri daxil olmaqla üç əsas mənbəyə bölünür [4 s.62]. Qeyd olunan məlumatların əsasən bu şirkətlərin bizə təqdim etmək istədikləri bütün əldə edilə bilən maliyyə məlumatlarını təklif etmələri ilə əlaqədar olduğunu vurğulamaq vacibdir. Bu şirkətlər hesablarını birbaşa açıqlamırlar, çünki beynəlxalq korporasiyaların oxşarı olmadığını iddia edirlər. Başqa sözlə, Böyük Dördlük audit şirkətləri şirkətlərdə ümumi effektivlik sahələrini göstərən tək sətirlər üçün ümumi mənfəət və ya mənfəət haqqında hesabat vermir. Beləliklə, bir şirkətin tətbiq xəttinin effektivliyini müəyyən etmək və şirkətin ümumi gəlirliliyinə ən böyük töhfəni vermək asan deyil. Ona görə də biz onların qlobal gəlirlərini bilmirik, nə də ki, iqtisadi sabitlik haqqında heç bir məlumat almırıq. ABŞ-da və İngiltərədə böyük biznes müəssisələrinin hər biri bu şirkətlərdən biri və ya bir neçəsi ilə çalışmaqdadır.

Böyük Dördlük şirkətlərinin maliyyə hesabatlarının auditinin keyfiyyətli aparılmasında müstəsna rolu var [5 s.43]. Hal-hazırda Böyük Dördlük şirkətləri İT sistemlərində inqilab edir. Belə ki, onlar bir neçə şirkətin auditinin keyfiyyətini artırmaq üçün audit prosedurlarına əlavə olaraq CAAT-"Kompüter-Dəstəkli Audit Üsulu" və məlumat axtarışı və analitik alətləri istifadə edirlər. Bu alətlər auditorlara istənilən formada məlumatları qəbul etməyə və onu daha yaxşı təhlil etməyə imkan verir. CAAT-lara bir çox cəhətdən auditorlara kömək edə biləcək müxtəlif üsullar daxildir. Məsələn, auditorlar onlardan tendensiyaları müəyyən etmək və ya təqdim olunan məlumatdakı anomaliyaları ayırd etmək üçün istifadə edə bilərlər. Bu alətlər həm xarici, həm də daxili audit üçün istifadə edilə bilər.

Bir çox ölkələrdə öndə gedən audit şirkətlərinin siyahısı məşhur peşə və biznes jurnallarında dərc edilir və bu siyahıda həmin şirkətlərin fəaliyyəti ilə bağlı statistik və analitik məlumatlar və digər maraqlı məlumatlar yer alır. Həmin məşhur audit qurumlarının təsnifatlaşdırılması göstərilmiş audit xidmətinin həcminə, gəlirinə, işçilərin sayına və başqa başlıca faktorlara görə edilir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, öndə gedən başlıca xarici audit təşkilatları "Böyük dördlük" və ya "Big Four" kimi tanınan firmalar hesab edilir. Həmin 4 böyük audit firması barəsində aşağıdakı məlumatlara nəzər yetirə bilərik qrafik 1.

Qrafik 1-dən göründüyü kimi 2021-ci il statistikasına əsasən işçilərinin sayına görə Deloitte şirkəti dünyada təqribən 345,000-lik heyət ilə ilk sırada yer alarkən, KPMG şirkəti isə təxminən 236,000 nəfərə görə son sırada yer almışdır.

Gəlirlərinə gəldikdə isə Qrafik 2-dən də aydın olduğu kimi 2021-ci il statistikasına görə Deloitte şirkəti işçi sayında olduğu kimi gəlirlərdə də 50 milyard dollar ilə ilk pillədə qərarlaşmışdır. Son sırada isə 32,1 milyard dollar ilə yenə KPMG şirkəti göstərilmişdir.

**Qrafik 1.**

**Böyük Dördlüyə daxil olan audit şirkətlərinin işçi sayı**




**Qrafik 2.**

**2021-ci il üzrə Böyük Dördlük şirkətlərinin gəlirləri**




**Mənbə:** [7].

26 bankdan 23-ü ötən ili xalis mənfəətlə, 3-ü isə xalis zərərlə başa vurmuşdur. Bundan əlavə 2021-ci ili Azərbaycanın bank sektoru 609,000,000 manatla başa vurmuşdur ki, bu da 2020-ci il ilə müqayisədə 7,2% və ya 41,200,000 manat artım deməkdir. Cədvəl 3-ə nəzər saldıqda görürük ki, Azərbaycanda audit olunan bankların sayında Baker Tilly Azərbaycan şirkəti digər audit şirkətlərini qabaqlayır. Maraqlısı budur ki, 2021-ci il üzrə siyahıda Deloitte Azərbaycan şirkəti yer almayıb. Əksinə EY Azərbaycan şirkəti digər böyük dördlük şirkətləri içərisində fərqlənir. O,

ölkənin ən qabaqcıl bankları olan Paşa Bank, Beynəlxalq Bank və Kapital bank kimi bankların auditini aparmışdır.

***EY Azərbaycan***

EY şirkəti 1989-cu ildə "Ernst və Whinney" və "Arthur Young&Co" şirkətlərinin kombinasiyası nəticəsində təsis edilmişdir and qərargahı Londonda yerləşən Böyük Britaniya audit şirkətidir. Şirkət indiki EY adını 2013-cü ildə əldə etmişdir və o vaxtdan bu yana həmin ad altında fəaliyyətini davam etdirir. Hal-hazırda dünya üzərində EY şirkətinin 150-dən artıq ölkədə təxminən 700-ə yaxın ofisi fəaliyyət göstərir.

**Cədvəl 3.**

**2021-ci il üzrə bankların mənfəəti və onların aparıldığı audit şirkətləri**

| Banklar və Audit Şirkətləri | 2021-ci il üzrə Mənfəət/(Zərər) |
|---|---|
| **ANR Audit** | **27.289.000 ₼** |
| Xalq Bank | 27.289.000 ₼ |
| **Baker Tilly Azərbaycan** | **68.948.000 ₼** |
| AFB Bank | 9.303.000 ₼ |
| AzərTürk Bank | 546.000 ₼ |
| Bank Avrasiya | 793.000 ₼ |
| Bank BTB | 546.000 ₼ |
| Bank of Baku | 23.060.000 ₼ |
| Muğan Bank | 1.552.000 ₼ |
| Naxçıvan Bank | 6.301.000 ₼ |
| Rabitə Bank | 2.725.000 ₼ |
| Turan Bank | 668.000 ₼ |
| Unibank | 4.688.000 ₼ |
| Yelo Bank | 11.733.000 ₼ |
| Ziraat Bank Azərbaycan | 7.033.000 ₼ |
| **Best Audit MMC** | **-1.960.000 ₼** |
| Melli İran Bankı Bakı Filialı | -1.960.000 ₼ |
| **EY Azərbaycan** | **484.242.000 ₼** |
| Accessbank | 1.106.000 ₼ |
| Azərbaycan Beynəlxalq Bankı | 208.780.000 ₼ |
| Bank VTB Azərbaycan | 4.213.000 ₼ |
| Kapital Bank | 179.963.000 ₼ |
| Paşa Bank | 90.180.000 ₼ |
| **Grant Thornton Azərbaycan** | **3.756.000 ₼** |
| Azərbaycan Sənaye Bankı | 2.228.000 ₼ |
| Pakistan Milli Bankının Bakı Filialı | -407.000 ₼ |
| Premium Bank | 1.935.000 ₼ |
| **KPMG Azərbaycan** | **19.523.000 ₼** |
| Bank Respublika | 19.523.000 ₼ |
| **PwC Azərbaycan** | **6.770.000 ₼** |
| Expressbank | 7.701.000 ₼ |
| Yapı Kredi Bank Aazərbaycan | -931.000 ₼ |
| **RSM Azərbaycan** | **410.000 ₼** |
| Günay Bank | 410.000 ₼ |
| **Grand Total** | **608.978.000 ₼** |

**Mənbə:** [7]

Dürüstlük, müstəqillik və peşəkar skeptisizmlə yüksək keyfiyyətli auditlər həyata keçirməklə ictimai maraqlara xidmət etmək EY şirkətinin əsas prioritetidir. Şirkətlərin sizin potensialınıza

çatmaq üçün ardıcıl metodologiyaya həsr olunmuş xidmətə ehtiyacı olduğunu bilərək, onlar sənaye haqqında dərin və tam biliklərdən və əməliyyatlardan əldə edilən müasir anlayışlardan yararlanmağa çalışırlar. Qeyri-adi maliyyə fəaliyyətinə gəldikdə onlar elektron sübutları yoxlaya, bütün şəfqət və təcili ölçmə yolu ilə maliyyə hesabatlarını nəzərdən keçirə bilərlər. Əgər vacibdirsə, onlar sübutları ifadə etmək üçün peşəkar şahid hesabatlarını da təklif edə bilərlər.

***Deloitte Azərbaycan***

Deloitte şirkəti amerikan-yapon firması hesab olunur və 1845-ci ildə İngiltərənin London şəhərində Uilyam Deloyt tərəfindən əsası qoyulmuşdur. 1990-cı ildə Deloitte şirkəti "Touche, Niven&Co" və "Tohmatsu & Co" şirkətlərinin qovuşması nəticəsində indiki adını almışdır. 2018-ci ilin araşdırmalarına əsasən bu beynəlxalq audit şirkəti dünyanın 150-dən artıq ölkəsində fəaliyyət göstərir və ölkəmiz də daxil olmaqla təqribən 345 370-a yaxın əməkdaşı işləyir.

***PwC Azərbaycan***

1998-ci ildə 2 mühasibat şirkəti olan Coopers & Lybrand və Price Waterhouse şirkətlərinin birləşməsi nəticəsində indiki adını alan şirkətin mənzil qərargahı Nyu York şəhərində yerləşir. Hal-hazırda şirkətin 156 ölkədə 740-a yaxın ofisi var və 30 iyun 2021-ci il tarixinə olan məlumat göstərir ki, şirkətin 295 000-dən artıq əməkdaşı fəaliyyət göstərir və çalışan əməkdaşlarının böyük bir hissəsinin Qərbi Avropa, Asiya və Amerika regionlarında olduğu təsbit edilmişdir. PwC Azərbaycan müştərilərinə göstərdiyi yüksək səviyyəli və keyfiyyətli xidmətdən əlavə işçilərinin davamlı inkişafına da diqqət yetirir. Fəaliyyət dövrü ərzində bir çox sayda ixtisaslı kadrlara təlimlər keçmiş və onların ixtisaslaşmasında önəmli rol oynamışdır. Həmin ixtisaslı kadrların bir qismi günümüzdə şirkətin özünü təmsil etməklə peşəkar xidmət göstərir, digər hissəsi isə öz peşəkarlığını gücləndirmək məqsədilə ölkənin başqa-başqa biznes strukturlarında fəaliyyət göstərirlər. Bu şirkətin geniş fürsətlərə malik olması, eləcə də yerli və beynəlxalq ölçüdə dərin və köklü təcrübəyə malik olması onun müştərilərinə yüksək səviyyədə xidmət göstərməsinə köməklik göstərir. PwC Azərbaycan neft və qaz sektoru, bank və maliyyə xidmətləri, sığorta və telekommunikasiya kimi sahələrdə böyük təcrübəyə malikdir. Belə ki, PwC şirkəti hüquqi şəxslərin və sahibkarların çatmaq istədiyi dəyərləri formalaşdırmasında keyfiyyətli audit, hüquq, məsləhət və vergi xidmətləri göstərməkdə davam edir. Bir sözlə, şirkətin əsas qayəsi fəaliyyət göstərdiyi biznes mühitində inam, nizam-intizam və güvən yaratmaq və başlıca problemləri həll etməkdən ibarətdir.

***KPMG Azərbaycan***

KPMG şirkəti 1987-ci ildə "Klynveld Main Goerdeler" və "Pear Marwick International" şirkətlərinin kombinasiyasının nəticəsi kimi yaranmışdır və mənzil qərargahı da Niderlandın Amstelveen şəhərindədir. Dünyanın 145 ölkəsində fəaliyyət göstərən bu şirkətin 236 000-dən artıq işçisi fəaliyyət göstərir və 3 sahədə: maliyyə auditi, vergi və məsləhət kimi xidmətlər göstərməkdədir. 2012-2020-ci illəri əhatə edən audit fəaliyyəti üzrə inkişaf konsepsiyasının maddələrinin tətbiqinə görə 2018-ci ilə nəzərən audit xidmətini həyata keçirən audit şirkətləri və sərbəst auditorların apardığı audit fəaliyyətinin keyfiyyətinin kənar nəzarətlə yoxlanılması Auditorlar Palatasının bu işlərdən məsul qurumu hesab edilən Keyfiyyət üzrə nəzarət komitəsinin 2018-ci ilə olan yoxlamalarının nəticəsi kimi bir sıra maraqlı məqamlar ortaya çıxmışdır. Məlum olmuşdur ki, KPMG şirkəti xarici böyük dördlüyə daxil olan 3 şirkətin həyata keçirdikləri audit prosesinin keyfiyyətinin Beynəlxalq Audit Standartlarına tam uyğunluğu təsdiq olunmuşdur. Növbəti böyük dördlüyə daxil olan şirkətə - KPMG-ə gəldikdə isə onun xidmətinin keyfiyyəti ilə bağlı icmalda heç bir qeydiyyat olmamışdır. Kpmg şirkəti ilə bağlı maraqlı bir faktı nəzərə çatdırmaq olar ki, bu şirkətin adı bir neçə məsələ ilə bağlı qalmaqalla yadda qalmışdır. Belə ki, iflasa uğramış olan bankın, yəni Bank Standart və Texnika bankın auditini müflisləşmədən öncə Kpmg şirkəti aparmışdı. Bu bankların müflisləşməsində bu audit şirkətinin günahlandırılması məsələsində diqqəti çəkən məqam eyni marka adı altında həm Kpmg Audit Azerbaijan, həm də Kpmg Azerbaijan Limited kimi qeydiyyatdan keçməsi olmuşdur. Əslində Kpmg Audit Azerbaijan bu işdə qanuni olaraq tam hüquqa malik olmasına baxmayaraq, bankların auditinin Kpmg Azerbaijan Limited (nümayəndəlik) tərəfindən aparılması əsas problem hesab edilirdi. Bütün bu yaşanan ciddi səhvlərdən sonra Kpmg şirkətinin nümayəndəliyi fəaliyyətini dayandırdı.

Doğrudur ki, Kpmg şirkətinin 2018-ci ildə Beynəlxalq Standartlara uyğun audit xidməti göstərən şirkətlərlə adı çəkilməsə də, bu dominant böyük dördlük şirkətlərdən başqa ölkəmizdə ANR və Smart Audit şirkətini və sərbəst auditorlardan Nəcəf Talıbovu misal çəkmək olar. Eyni zamanda icmalda 12 sərbəst auditor və audit şirkətləri də olmaqla fəaliyyəti hələ də beynəlxalq standartlarla uzlaşmayanlar mövcuddur və onlara xəbərdarlıq edilmişdir.

**Nəticə**

Bütün sahələrdə olduğu kimi dünya iqtisadiyyatı ilə yaxın inteqrasiya əlaqələrini prioritet seçən ölkəmizin yerli iqtisadiyyatı audit xidməti sektorunda da öz yerli sərhədlərində Beynəlxalq Audit Standartlarına ciddi şəkildə yer verməli, onların tətbiq olmasında maraq göstərməklə ölkədaxili hesabatlıq sənədləri ölkənin xaricində də etibarlı hesab olunaraq investorların respublikamızda daha da maraq göstərməsinə imkan yaratmalıdır. Belə bir addımın mövcudluğu daxili iqtisadi proseslərin sürətləndirilməsi üçün çox önəmlidir. Bunlardan əlavə nəzərə almaq lazımdır ki, audit xidməti bazarının təkmilləşdirilməsi, təsərrüfat subyektlərinin və auditorların müdafiə olunması, bu sahədə normativ hüquqi aktların beynəlxalq praktika əsasında inkişaf etdirilməsi, audit xidmətinin BAS-ın tələblərinə uyğun şəkildə həyata keçirilməsi, eləcə də auditin rolunun ölkəmizin iqtisadi həyatında rolunun və önəminin gücləndirilməsi və auditin və auditorun tərtib etdiyi hesabatların rolunun artmasının təmin olunması geniş ölçüdə makroiqtisadi indikatorların da müsbətə doğru dəyişməsinə aparır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Benefits and Challenges of Adoption of International Financial Reporting Standards, International Journal of Research and Innovation in Social Science Volume III, Issue VI, June 2019
2. Skobara V.V. Audit. Moskva, “DIS”, 2015
3. Terekhov A. A. Audit. Moskva, “Finansy i Statistika”, 2018
4. J. Peterson “Count Down: Past, Present and Uncertain Future of the Big Four Accounting Firms”. United States, “Emerald”, 2015
5. Barry J. Epstein, Eva K. Jermakowicz. Interpretation and application of international accounting and financial reporting standards.Wiley IFRS, 2019
6. statista.com/statistics/250503/big-four-accounting-firms number-of-employees/
7. marja.az/82415/21-bank-menfeet-3-bank-zerer-aciqladi-siyahi

**Rashad Tehran SHAMSILI**
*Western Caspian University, Baku, Azerbaijan*
E-mail: reshad.shemsili@gmail.com

## THE AUDIT ACTIVITY OF THE BIG FOUR COMPANIES IN WORLD EXPERIENCE AND ITS IMPLEMENTATION OPPORTUNITIES IN AZERBAIJAN

**Summary:** A number of steps are being taken towards the development of auditing activity and building it on the basis of international experience in our country. Undoubtedly, the world's top four companies are of great importance in studying international experience. Looking at the current situation, we see that there is a sharp difference in the number and amount of contracts between local and foreign audit companies, and taking this into account, increasing the share of local audit organizations in this type of service is one of the important issues in the country. The reason for the sharp increase is due to the international reputation of these foreign companies, level of training, specialization and other factors. One of the most important factors is the work quality. As a result, the most advanced banks in our republic are audited by EY Azerbaijan, KPMG Azerbaijan and PwC Azerbaijan, which are among the top four companies. The list also includes Baker Tilly Azerbaijan and Grant Thornton Azerbaijan, which are among the top ten companies. We are currently witnessing the revolution of these companies in information technology. So, they use CAAT (Computer Assisted Audit Tool), information search, and analytical tools for a better quality of audit work. The presence of such technology in our country will give a serious impetus to the audit service in the future.

**Research purpose:** The purpose of the study is to achieve the application of International Auditing Standards in Azerbaijan, study the position and role of the "Big Four" audit organizations in this service sector, find directions for the development of audit activities, further improve the place, role of local and foreign audit companies and use the practice of leading countries in this sector.
**Research method:** Comparative analysis, analysis, and logical generalization methods have been used during the research.
**Research results:** At the end of the research, it becomes clear that the study of international experience, taking into account the factors influencing the transition to International Auditing Standards, and increasing the share of local companies in this service sector are key issues.
**Key words:** big four, international auditing standards, revenue, local audit company.

**Рашад Тегеран ШАМСИЛИ**
*Западно-Каспийский Университет, Баку, Азербайджан*
E-mail: reshad.shemsili@gmail.com

## АУДИТОРСКАЯ ДЕЯТЕЛЬНОСТЬ КОМПАНИЙ «БОЛЬШОЙ ЧЕТВЕРКИ» В МИРОВОМ ОПЫТЕ И ПОЛОЖИТЕЛЬНЫЕ АСПЕКТЫ ВОЗМОЖНОСТЕЙ ЕГО ПРИМЕНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Резюме:** В нашей стране предпринимается ряд шагов по развитию аудиторской деятельности и построению ее на основе международного опыта. Несомненно, что большая четверка компаний мира имеет большое значение в изучении международного опыта. Глядя на текущую ситуацию, мы видим, что существует резкая разница в количестве и сумме договоров между местными и иностранными аудиторскими компаниями, и с учетом этого, увеличение доли местных аудиторских организаций в данном виде услуг является один из важных вопросов в страна. Причина увеличения резкой разницы связана с международной репутацией этих иностранных компаний, уровнем подготовки и специализации и другими факторами. Одним из важнейших факторов является качество работы. Именно в результате этого ведущие банки нашей республики проходят аудит EY Azerbaijan, Kpmg Azerbaijan и PwC Azerbaijan, которые входят в большую четверку компаний. В список также вошли Baker Tilly Azerbaijan и Grant Thornton Azerbaijan, которые входят в первую десятку компаний. В настоящее время мы наблюдаем революцию этих компаний в области информационных технологий. Таким образом, они используют CAAT (компьютерный метод аудита), информационно-поисковые и аналитические инструменты для повышения качества аудиторской работы. Наличие такой техники в нашей стране в будущем даст серьезный импульс развитию аудиторской службы.
**Цель исследования:** Целью исследования является достижение применения Международных стандартов аудита в Азербайджане, изучение положения и роли аудиторских организаций «большой четверки» в данной сфере услуг, поиск направлений развития аудиторской деятельности, дальнейшее совершенствование место, роль местных и зарубежных аудиторских компаний и использовать опыт ведущих стран в этой сфере.
**Метод исследования:** В ходе исследования использовались методы сравнительного анализа, анализа и логического обобщения.
**Резултаты исследования:** В конце исследования становится ясно, что изучение международного опыта, учет факторов, влияющих на переход на Международные стандарты аудита и увеличение доли местных компаний в данной сфере услуг, являются ключевыми вопросами.
**Ключевые слова:** большая четверка, международные стандарты аудита, доходы, местная аудиторская компания.

**Daxil olub:** 07.02.2022